



Tahir TALIBLI

# QAN DURULDUCU

Əli Şamilin yüz-yüz adın içinnən görünən adı gözə çarpandı. Yüz-yüz adın içinnən seçiləndi. Təbii ki, söz adamları bir-birini uzaqdan görəndi, tanıyandı. Bu tanışlıqda öndə olan, təbii ki, mənəvi bağlantılardı. Sözü də söz eləyən insanın içindəki mənəvi bütövlükdü, düşüncə sağlamlığıdı. Sözü yüksək məqama yükləyən də mənəvi bütövlük və düşüncə sağlamlığıdı.

Bir də o var ki, Söz sözdən yuxardakıları da, aşağıdakıları da göstərə bilir. O da var ki, sözdən yuxarıda olan Tanrıdı, Tanrıya bəlli olannardı. Bizlər bir-birimizi sözlərimiznən tanıdıq. Bir də deyəllər: «Ağzın əyrisinnən bilirəm nə deyəcəksən».

Elə Əli Şamilnən də tanışlığımız Söznən olub. İlk dəfə görüşəndə çoxdanın tanışları, dostları kimi görüşmüşük. İlk sözü də bu oldu ki, Tahir, səni yaxşı tanıyıram, Müzəffərin qardaşı kimi. Bu söz məni bir az içimnən dikəltdi, bir az da səksəndirdi. Deməli, Müzəffərin qardaşı kimi… Həm də durultdu. Deməli, sözümnən yox, Müzəffərin qardaşı kimi.. bu yerdə osmanlılar demiş: «Nə mutlu bana».

Yeridi deyim ki, erkən gəncliyimdə, lap elə uşaqlığımda, oxuduğum məktəbdə, dost uşaqlar arasında, qonşuluqda, ta nə bilim, haralarda İslam kişinin oğlu kimi tanınmışam. Bu da bəlli ki, adın üstəki ata adı çox qürurverici olur. Sonra sərbəst həyat, təhsil, oxu-yazı, nə bilim az-çox fəaliyyət. Öz adımnan tanınmışam, sözümnən tanınmışam? Yenə deyə bilmərəm.

İndi məni çox yerdə gənclər, cavannar Savalanın atası kimi tanıyırlar. Təki olsun, yenə də nə mutlu bana.

Çox arzulayardım ki, çox vaxt keçənnən, dünyadan köçənnən sonra məni yenə nəvə adıyla tanıyaydılar.

Ən yaxşı tanıma, tanıtma, yenə də deyirəm, öz sözüynən tanınmaqdı. Söz bir az yumşağa getdi, deyəsən, sözümün canı budu ki, mən Əli Şamili sözüynən görüb tanımışam. Qısa demək budu ki, o öz ömrünü söz-söz qurub, necə ki, daşı daş üstə qoyduqca möhtəşəm divar alınır.

Bu təbrik yazısında Əli bəyin edib-elədiklərini yazsam, sadalasam, böyük bir kitab alınar. Kitabı da ki yazdın, gərəkdi ki, nəşr elətdirəsən, ona nə Əlinin pulu, marağı çatar, nə də mənim, belə deyək ki, vəsaitim.

Ama qısaca belə demək olar ki, Əli Şamilin Azərbaycan elminə, folkloruna, düşüncə sisteminə verdiklərini, bir neçə əsri bir yerə yığsan, az adam verə bilib.

Tale elə gətirdi ki, mən Azərbaycan Radiosunda işə gəldim, Xalq yaradıcılığı redaksiyasının baş redaktoru kimi. Elə 25 ildi ki, burdayam. Radioya işə gələnnən Əli bəyin redaksiyada «Qonaq eldən gələr» adlı verilişini gördüm. Bu veriliş uzun müddət yayımlandı, son bir neçə ildi dayanıb. Dayanıb deyəndə ki, öz «təqsirinnən» olub. Bu dünən də, bu gün də, elə şair demiş, yarın da bir istəyim itmir ki, Əli Şamil gəlib verilişini bərpa eləsin. Ama işinin

çoxluğunu bəhanə eləyir. Yaxşı bilirəm ki, o, iş çoxluğunnan qorxannardan deyil. Əlinin işi çoxaldıqca, tədqiqatları artdıqca, axtarışları davam elədikcə ən azı qanı durulur, belə demək mümkünsə, cavanlaşır. O, axtarışsız yaşaya bilmir.

«Qonaq eldən gələr» verilişiylə Əli bəy misilsiz işlər gördü. Bütün türk dünyasınnan ən maraqlı olmuşları, folklor və tarix nümunələrini verilişə, Azərbaycan radiosunun efirinə gətirdi. Neçə-neçə türk dünyasının addı-sannı mütəxəssislərini Azərbaycan Radiosunun dinləyiciləri ilə görüşdürdü. Türk dünyasının bütün coğrafiyasını əhatə eləyən çox maraqlı verilişlər hazırladı. Bu coğrafiya Altaylardan, Sibirrərdən keçdi. Doğudan, Batıdan addadı. Qaşqaylardan, qaqauzlardan, Krımdan, Balkannardan – türk nəfəsi gələn hər yerdən . Həmişə elə ətrafında, iş yerində bütöv türk dünyasınnan həm cavan, həm də yaşlı folklorçular görünüb. Ən unudulmuş tarixi gerçəkliyin izinə düşmək onun işi-peşəsidi, demək olar ki.

Mən yazını xırda bir detalla bitirmək istərdim. Dilimizdə minlərlə idiomatik söz və ifadələr var ki, hamısı da tariximiznən, məişətimiznən, yaşayışımıznan bağlıdı. Bir ifadə də belədi: «Kəkliyim azıb». Bu sözün üstündə çox düşünmüşəm, çözəyi açılmayıb ki, açılmayıb. Bir dəfə Əli bəylə söhbət əsnasında mənə ip ucu verdi, dedi ki, qaşqaylar mədəyə kəklik deyir, bu ifadə tək qaşqayların danışığında, leksikonunda qalıb. Belədə hər şey aydınlaşdı, deməli, mədənin pozulması, soyuqlaması «kəkliyin azmasıdı». Bu da çox vaxt yeməyi qarışdırmaqnan, həddən çox yağlı qidalar işlətməknən baş verir. Nəysə...

Əli Şamilə, bu yorulmaz tədqiqatçı alimə 70-dən sonra da uzun ömür, gənclik enerjisi, yaradıcılıq axtarışları, seçib-sonalamaq arzulayıram.

Dediyim kimi, axtara-axtara yaşayır, yaşaya-yaşaya qanı durulur, cavanlaşır.

Ən yaxşı qan durulducusu işdi, zəhmətdi, halal yaşamaqdı.

# Eşq yolçusu

Fəxrəddin Salim haqqında da kiçicik bir dost sözü yazmaq istəyirəm. Nədən yazmağı, necə yazmağı, hardan başlamağı özüm də kəsdirə bilmirəm.

İlk tanışlığım oxuduğu ilahilərlə olub. Saznan, ozan avazıynan. Deyəsən, elə o vaxtlar idi ki, bir qrup halındaydılar - «Savalan» qrupu. İndi o qrup haqqında səhih nəsə yaza bilməsəm də, deməliyəm ki, qrupun rəhbəri Novruz Novruzlu, üzvlər Həlimət Sultan, yenə kimsə vardı, gərək yadıma sala biləm. Hə, Cavad İsmayıl, İffət Əsgərov, təbii ki, Fəxrəddin Salim. Novruz müəllimə Tanrıdan rəhmət diləyirəm, qalanlara can sağlığı. Çoxdan gen düşdüyümüz bir gələnəkdən, hardasa bir planet kimi unudulub qalmış bir düşüncədən gəlmişdilər hamısı da.

Demək olar ki, dünyanın bir çox ölkələrində konsertləri baş tutmuşdu. Yadda-yaddaşda qalmışdılar.

Fəxrəddin bəylə bir neçə dəfə Azərbaycan Radiosunun Xalq yaradıcılığı redaksiyasında görüşüb verilişə çıxmışdıq. Oxuduqları elə bil yernən göyün qovuşuğunnan gələnnərdi. Yernən göy harda qovuşur, necə qovuşur? Allah bilir.

Oxuduqları da, dediyi şeirlər də, söhbəti də, sazda ifası da bir ruh kimi gəlir; düşüncəni, səndə hər nə var, bir ruh kimi də özünə çəkir, özündə saxlayır. Hansı əsrin ruhudu, şamanmı ruhudu, Allahla insanın birgəliyinnən gələn şumer düşüncəsinnənmi gəlir? Daha artığını, uzağını da düşünə bilmirsən.

Ən çox dərk elədiyin isə budu ki, Fəxrəddin Salimin bütün mahiyyəti eşqlə ehtiva olunub. Cazibəsi eşqdi, eşqin cazibəsindədi. O, böyük, qadir sufilərin dediyi kimi, öz içiynən – eşqnən yol gələndi. Eşq ən böyük və uzun yoldu. Bəli, öz içinnən gəldiyin yolun, nə məğribinə çata bilirsən, nə də məşriqinə. Eşq yolu insanı Allaha aparan, Allaha qovuşduran yoldu həm də, yenə də sufilərin təbirincə desək. Sufilər onu da deyib ki, nə eləsən, eşqnən elə, yerinnən duranda eşqnən dur (eşq, bəlkə də, Allahın

adlarınnan biridi) eşq səni mənzilə çatdıra biləndi. Ağıl aldada da bilər, ağıl  çaşdıra da bilər, ağılnan getsən, uduza da bilərsən. Çox ürfani məntiqdi.

Yol – Eşqdi, Eşq – yoldu.

Fəxrəddin bəyin yaşam tərzi, düşüncə amalı, görüb-götürdükləri, elə bilirəm ki,  bir eşq işığı içindədi.

Sufilərin öyrəndikləri və öyrətdikləri bir təlim var. Bu təlim uca, ürfan sufi Şəms Təbrizidə belə ifadə olunub. Quran dörd səviyyədə öyrənilə, oxuna bilir. İlk səviyyə zahiri mənadı. Zahiri məna sirrərin giriş qapısıdı. Sonra gəlir batini məna. Batini məna sənə daha geniş yol açır, özünə çəkir.  Üçüncü məna da var, batinin batinisi. Getdikcə dərinnəşən, sirrərini sənə verən, belə demək mümkünsə, ağlını başınnan alan, eşq qapılarını üzünə taybatay açan batini məna. Burda sirrərin aydınlığınnan bayılırsan. Nəhayət, dördüncü səviyyə o qədər dərin mənadı ki, söznən ifadəsi mümkün olmur. Bu səviyyədə sənin dünyadərkin nə miqdardı, nə səviyyədədi, sirrərin hansı qatındasan, bilə bilməzsən. Əslində orda sən yoxsan, sən təcəllədəsən, böyük bir bütövün bir xırda damlasının mində birinnən də kiçiksən, amma, nə mutlu ki, bütövün içindəsən. Bu, xoşbəxtlik anındı. Bu, ariflikdi, yoxsa o məqama hələ çox var. Aşkardan da o tərəfdə aşkar var. Min gizlin var hər aşkarın içində.

***Görün Mövlanə Füzuli nə deyir:***

*«Hikməti-dünyəvi-mahifə bilən arif degil*
*Arif oldur, bilməyə dünyəvi-mahifə nədir.*

Bu-ariflik məqamıdı. Arifliyə çatanın məqamıdı. İnsanın bütövdə bütövləşməsidi.

Bu – o qatdan sonra bildiklərin, yoxsa bilmədiklərindi. Bu, çox dərin ürfandı. Bu həm də ürfani dərdlərin içində olmaqdı, ürfanı anlamaqdı. Dünyanın nəgahani dərdləri də var. Nəgahani dərdlər uzaq olsun.

Fəxrəddin  Salim ruh kimi bugünümüzə gəlib çıxan böyük sufidi. Elmi, biliyi Tanrıdan enənlərdi. Oxuduqları, dedikləri, söylədikləri, ifası Tanrıdan gələnnərdi. Bütövdü. Daşıdığı Salim təxəllüsü onun həyat tərzini, düşüncə sistemini, dərviş könüllülüyünü tam ifadə eləyir. Bu isə Allaha təslim olmaqnan mümkündü. Salim-Allaha təslim olandı. Allahda təcəllə olandı, böyük bütövdə itib əriyəndi.

Fəxrəddin Salimin yüksək yaradıcılığı, poetik düşüncəsi, ürfani yaddaşı ayrı-ayrılıqda araşdırma tələb eləyən bir mənbədi, yatırımdı.

Onun əsərrərinnən, oxularınnan, elmi kəşflərinnən, çaldığı sazınnan  ayrı-ayrılıqda danışmadım. Heç güc də çatası deyil. Heç bir alim kimi də elədiklərini, yazdıqlarını sözə sığışdırmaq mümkün olası iş deyil. Sözümün sonunda bir kitabının adını tutmaq istədim. «Milli yaddaş sistemində ürfan və təsəvvüf». Nəticə budu ki, bizim milli yaddaş sistemimizdə ürfan və təsəvvüf ilk sıradadı. İtib bata da bilməz.

Fəxrəddin Salim kimi tək-tək adamlar mili kimliyimizin göstəriciləridi. Onlara qayğı, diqqət  gərəkdi. Özü də çox.

